1 oktyabr 2021-ci il, cümə XALQ QƏZETİ

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 283**

**Bakı şəhəri, 28 sentyabr 2021-ci il**

***"Ailə kəndli təsərrüfatının uçotunun aparılması Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 22 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 52; 2019, № 3, maddə 533; 2021, № 2, maddə 208) ilə təsdiq edilmiş "Ailə kəndli təsərrüfatının uçotunun aparılması Qaydaları"nın 8-ci hissəsindən ", "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 16.2-ci maddəsinə uyğun olaraq uçota aldığı gündən 1 (bir) ay ərzində bu barədə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***